

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 yanvar 2024-cü il №6 (2817) https://mod.gov.az Qiyməti 30 qəpik


*Reportaj*

## Ağdərəyə yenidən günəş doğur!..



Axşamdan əsməyə başlayan ılıq külək qarşıdakı günlərdə havanın kəskin soyuyacağının əlamətidi. Uzaqdan ağ çalmalı Murov aydınlığıyla görünür. On illərin donmuş ümidlərinin buzu yavaş-yavaş əriməkdədi. Çoxdan arzu etdiyimiz gəlişimizin bu möhtəşəm dağ silsiləsinin Cənub hissəsinə - Ağdərəyə getmək xəyallarımızı gerçəkləşdirib. General-mayor Bilal Çompuzova sonuncu əməliyyat tədbirlərindən sonra hərbi xidmətini düşməndən tamamilə azad edilmiş müqəddəs torpaqlarımızda davam etdirən əsgərlərlə görüşmək istəyimizi bildirəndə bizə məğrur döyüşçülərin görüşünə getməyə bələdçi zabit ayırır. Bununla da əsgərinə, döyüşçüsünə dəyər verən komandirdə bir ehtiram da duyuram. Bu, həm də Ali Baş Komandanın verdiyi döyüş əmrini vaxtında, məsuliyyətlə yerinə yetirən hərbi qulluqçularımızın Vətənə hərbi xidmətə sədaqətinə yüksək dəyərdir.

Əsgərin diqqət və qayğıya həmişə ehtiyacı olub. Bu qayğını, diqqəti görən əsgər Vətən yolunda komandirin verdiyi istənilən əmri tərəddüdsüz, vaxtında icra edir. Komandirlərin mənəvi dəstəyini həmişə hiss edən əsgərlər 2020-ci il sentyabrın 27-də əkshücum əməliyyatı kimi başlayan, 44 gün davam edən Vətən müharibəsi ilə yeni tarix yazdı. Otuz il əvvəl erməni silahlı dəstələrinin işğal etdiyi ərazilərimizdən bu illər ərzində bir addım da geri çəkilmək niyyəti olmayıb. Həmin ərazilərdə daha da möhkəmlənən düşmən sülh danışıqlarından yayınırdı, regionda mövcud status-kvonu saxlamaq istəyirdi, havadarlarının həm siyasi, həm də hərbi dəstəyindən bəhrələnərək güclənirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qətiyyətlə demişdi ki, belə davam edərsə, Azərbaycanın ərazi bütövlüyü döyüşlərlə bərpa ediləcək. Bu ruhda döyüş hazırlığını artıran Azərbaycan əsgərinin bir məqsədi, bir amalı vardı: Torpaqları azad edərək Vətənin ərazi bütövlüyünü bərpa etmək. Bunun üçün Ali Baş Komandanın qarşıya qoyduğu missiyanı sədaqətlə yerinə yetirdi. Bu gün həmin ərazilərdə əsgərlər təlim-məşqlərini davam etdirirlər.

Tərtər şəhərindən üzü Qarabağa bir yol uzanır. Bu yol Ağdərəyə aparır. Mayor Fuad Rəhimov əraziyə kifayət qədər yaxşı bələddir. O, yolumuzun üzərindəki dağlardan, dərələrdən, ermənilərin viran qoyduğu şəhər və kəndlərin azad edilməsi uğrunda gedən döyüşlərdən söz açır. Yol uzandıqca sağımızda, solumuzda yerlə-yeksan olunmuş kəndlərin, uçurulmuş evlərin divarlarını görürük. Bu kəndlərə girmək qəti qadağandır. Burada hər yer təhlükəlidir. Çünki on illər boyu düşmən bu ərazilərə mina basdırıb. İkinci Qarabağ müharibəsi zamanı bu ərazidə gərgin döyüşlər gedib. Düşmənin gücləndirilmiş sədləri olub. Hətta özündə mif də uydurmağı yaddan çıxarmayıb. Azərbaycan əsgərinin keçə bilməyəcəyini iddia etdiyi "Ohanyan səddi"nin qalıqları görünür. Dərin, adama boy verməyən səngərlərin olduğu dövr artıq tarixə gömülüb. Düşünürsən ki, atəşkəs dövründə bu səngərlərdə Azərbaycan əsgəri gecəgündüz keşik çəkib. Yerin altındakı sığınacaqları, blindajları döyüş ruhunun, qələbə ruhunun dayaq məntəqəsi bilib. Səngərlərə çəkilən əlaqə yolları döyüşçüləri döyüşlərə aparan yollar olmuşdu. Burada əsgərlərimiz həm də təlim keçib döyüş vərdişlərini artırırdılar. Bu səngərlərdən döyüşə atılmışdı Azərbaycan əsgəri. Neçə-neçə Poladların, Mirdamətlərin, Mübarizlərin formalaşdığı bu səngərlər o zaman düşmən üçün topdağıtmaz qalalar olmuşdu.

Tərtər-Ağdərə yolu asfalt olsa da, sürücü tez-tez əyləcdən istifadə etmək məcburiyyətindədir. Mərmilərin partlayışından, minaları basdırmaqdan asfaltda da asfaltlıq qalmayıb. Vaxtilə keçə bilmədiyimiz təmas xəttini indi minik avtomobili ilə keçirik. Ermənilərin öydüyü "Ohanyan səddi"nin üzərində dayanıb onun necə qurulduğunu görürük. Burada ilk baxışda qeyri-adi heç nə yoxdu. 50 sm hündürlükdə 4-5 cərgə dəmir-beton dirəklər basdırılıb, araları sıx tikanlı məftillə toxunulub. Arxada ziqzaq səngərlər, ziqzaqların arası - minalar, müşahidə postları və s. Düşmən bir qədər arxada eyni qaydada ikinci, üçüncü sədd düzəldib ki, birinci səddi keçəndən sonra ikinci, üçüncü səddə müqavimət göstərərək döyüşü davam etdirsin.

Yolun sağında üzü Suqovuşana çox da dərin olmayan enli dərə uzanır. Dərənin bir hissəsində yerləşən dağıdılmış kəndin yolunu-izini ot-alaq basıb. Uçurulmuş evlərin ağaran daş divarları ən ağır döyüşlərin getdiyinin nişanəsidi. Burada Birinci Qarabağ müharibəsi illərində gedən gərgin döyüşləri yaxşı xatırlayıram - o döyüşlərdə əsgər olmuşam. Bir neçə dəfə əldən-ələ keçən 3 nömrəli sovxozun indi ancaq adı qalıb. Sonuncu ağır döyüşlər 1994-cü ilin mayın əvvəllərində olmuşdu. O zaman düşmən var gücü ilə cəbhənin əsas istiqamətlərindən - Ağdam və Ağdərədən hücum edərək Tərtər şəhərini işğal etmək istəyirdi. Burada taborumuz düşmənin qarşısını qətiyyətlə alaraq onun irəliləməsinə imkan verməmişdi. Neçə-neçə igid oğlumuz qətiyyətlə, igidliklə döyüşərək erməni silahlılarını məhv etmiş, zirehli döyüş texnikalarını da vurmuşdu.

Mayın 8-də cəsur döyüşçü, bölmə komandirimiz leytenant Yaşar Rəhimov bu döyüşdə xüsusi fərqlənmişdi. O, düşmənin bir tankını qumbaraatanla məhv etmiş, bölüklə axıra qədər döyüşmüşdü. Sonda düşmənin snayperindən yayına bilməmişdi. Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşdü.

..."Post QAİ" deyilən yerə yaxınlaşırıq. Sovetlər dönəmində burada böyük bir dövlət yol polisi postu vardı. Postun yanından sağa geniş asfalt yol uzanırdı. Bu yol Suqovuşan, Çaylı, Talış və başqa kəndlərə gedirdi. İndi nə postdan, nə də o kəndlərə gedən yoldan əsər-əlamət qalıb. Qalan yalnız erməni vəhşiliyinin izləridi.

Qarşımızda "Gödəkburun", "Vışka" və "Qlobus" yüksəklikləri sıralanıb. Ağdərənin qaşına çatana qədər aşağıda şəhərin olduğunu hiss etmirsən. Üzü aşağı şəhərə endikcə Ağdərə sanki qucaq açıb, bizi bağrına basacaq. Üç tərəfi dağlarla əhatə olunmuş məhəllələri təpələrin arxasında gizlədən bu şəhərin görkəmində bir miskinlik, küskünlük var. Müstəqillikdən sonra Azərbaycanın hər bir guşəsində baş verən yenilikdən, inkişafdan xəbər tutan Ağdərə demək istəyirdi ki, niyə məni uzun illər yağı tapdağı altında qoydunuz?!

Ağdərə şəhərinə girəndə ilk düşündüyüm yeni binaların ucaldığının, infrastrukturun təzələndiyinin, parkların, küçə və meydanların müasir görkəmə salınmaqla qeyri-adi bir mənzərə ilə qarşılaşacağımın fərqində idim. Xəyal etdiyim yox, məcburən qoyub getdiyimdən də bərbad Ağdərəyə gəlmişdim. Şəhərin girəcəyində Avtovağzal vardı. İndi o yoxdu. Gözüm yenilik axtarır, tapa bilmir. O zamankı yanacaqdoldurma məntəqəsi bərbad gündə idi. Soldakı birinci körpünü keçib şəhərin mərkəzinə doğru gedirik. Yalnız diqqətimi çəkən ikimərtəbəli rayon xəstəxanasının rənglənmiş fasadı olur. 1992-ci ilin birinci yarısından 1993-cü ilin ikinci yarısına qədər hərbi hospital burada yerləşib. Onunla üz-üzə texniki peşə məktəbi vardı. Taborumuzun arxa cəbhəsi burada idi. Ətrafdakı binalar da daxil, Ağdərə şəhərində yeni bir tikiliyə təsadüf etmədim. Otuz il əvvəl gördüyüm icra hakimiyyətinin binası, fərdi yaşayış evləri, həyət-bacalarda da heç bir yenilik görmək mümkün deyildi. Şəhər hələ də sovet dövrünün təsirindən çıxa bilməyib.

Zamanında Azərbaycanın ərazisinə görə Ağdərə ən böyük rayonlarımızdan biri idi. Burada üzümçülük daha geniş inkişaf etmişdi. Qarabağda erməni separatizmi baş qaldırandan sonra bəzi rayonlarımız kimi, Ağdərə də erməni işğalına məruz qaldı. Otuz ildən artıq erməni əsarətində olan Ağdərə rayonu Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal əməliyyat tədbirlərindən sonra azad edildi. İşğalçı Ermənistan ordusu tərəfindən rayonun ərazisi minalandığı üçün sakinlərin bura köçürülməsi təxirə salınıb. Minalardan və digər partlayıcı qurğulardan ərazilər təmizləndikdən sonra həyat öz axarına düşəcək. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı proqramı Ağdərə şəhərinə də yeni nəfəs gətirəcək, günəş yenidən doğacaq...

Ağdərə, otuz ilin o üzündə qalmış döyüş xatirələrimin ünvanı.

Döndüm sənə, yenidən döndüm, Ağdərəmiz!

**"Azərbaycan Ordusu"**

# Hərbi hissələrdə yeni tədris dövrünə hazırlıq prosesi yoxlanılıb



Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev yeni tədris dövrünə hazırlıq prosesinin gedişini yoxlayıb.

Məruzə olunub ki, hazırlıq prosesi ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilir, bölmələrdə və təlim şəhərciklərində maddi-texniki və tədris bazası təkmilləşdirilir, döyüş texnikası və silahların sazlığı, eləcə də təchizatın varlığı yoxlanılır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik Kərim Vəliyev "Gizir hazırlığı kursu"nun gedişi ilə də maraqlanıb.

Bildirilib ki, keçirilən məşğələlərdə əsas diqqət kursantların bilik və bacarıqlarının daha da artırılması, ordumuzun arsenalında olan müasir silah, texnika, habelə digər döyüş vasitələrinin düzgün istismarı və effektiv tətbiqi qaydalarının öyrədilməsinə yönəldilib.

Hərbi hissələrdə şəxsi heyətlə görüşən general-polkovnik Kərim Vəliyev onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib, hərbi qulluqçulara yeni tədris dövründə uğurlar arzulayıb.



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun yeni tədris dövrünün başlanması ilə əlaqədar tələb və göstərişlərini şəxsi heyətə çatdıran Baş Qərargah rəisi döyüş və fiziki hazırlıq üzrə tədbirlərin effektiv təşkili, eləcə də hərbi qulluqçuların peşəkarlığının daha da artırılmasına dair tapşırıqlar verib.







## Hərbi hissədə növbədənkənar Prezident seçkiləri ilə bağlı müşavirə keçirildi

*7 fevral 2024-cü ildə Azərbaycan Respublikasında növbədənkənar Prezident seçkilərinin keçirilməsi ilə bağlı hərbi hissədə müşavirə keçirildi. Müşavirədə birlik komandirinin göstərişinə əsasən, hərbi hissələrdə yaradılacaq seçki məntəqələrinin yerləri ilə bağlı müzakirələr aparıldı.*




Polkovnik İdris Məhərrəmov bildirdi ki, 30 ilə yaxın erməni silahlı birləşmələrinin işğalı altında qalan ərazilərimiz azad edildikdən sonra orada ilk dəfə olaraq seçki məntəqələri qurulacaq. Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdamda və Ağdərədə Azərbaycan əsgəri Azərbaycanın parlaq gələcəyinə səs verəcək. Hər yerdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də hərbçilərin azad və demokratik şəraitdə səs verməsi təşkil olunacaq. Hər bir hərbi qulluqçunun fevralın 7-si seçki məntəqəsinə gələrək arzu etdiyi namizədə səs verməsi üçün müvafiq şərait yaradılmışdır.



Polkovnik İdris Məhərrəmov hərbi hissələrdə Prezident seçkilərinin yüksək səviyyədə keçirilməsinin təşkili üçün seçilmiş zabitlərə təhkim olunduqları dairələrə getməyi yaradılacaq məntəqələrə lazım olan avadanlıqların alınmasını, orada müşahidəçilərin və media nümayəndələrinin də iştirakının təmin edilməsi məqsədilə hazırlıqların görülməsinə göstəriş verdi.

Səs verəcək hərbi qulluqçuların siyahılarının dəqiqləşdirilməsi, onların harada və hansı məntəqədə səs verəcəyi barədə məlumatlandırmağın da vacibliyini qeyd etdi.

Müşavirədə seçkilərə cəlb olunan hərbi qulluqçulara müvafiq tövsiyələr verilərək ölkəmizin tarixində baş verəcək bu mühüm hadisənin mütəşəkkil şəkildə başa çatması üçün lazım olan bütün işlərin görülməsi də tövsiyə edildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Yeni tədris dövrünə hazırlıq prosesi davam edir



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrünə hazırlıq prosesi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yeni tədris dövrünə hazırlıq prosesi ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilir, maddi-tədris bazaları, təlim şəhərcikləri, döyüş texnikası və silahlar, eləcə də şəxsi heyətin təchizatı yoxlanılır.



Bundan başqa, rəhbəredici və digər normativ sənədlərin tələblərinin icrası, tədris vəsaitlərinin mövcudluğu və tətbiqi yoxlanılır.

# Tibb İdarəsində təlim-metodiki toplanış keçirilib



Cari ilin hazırlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin Tibb İdarəsində təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışda tibbi hərbi hissə və müəssisələrinin komandirləri (rəisləri), qoşun (qüvvə) növlərinin tibb xidməti rəisləri və Müdafiə Nazirliyinin baş tibb mütəxəssisləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Toplanışda Azərbaycan Ordusunda tibb sahəsində görülən işlər barədə ətraflı məruzələr dinlənilib.

Həmçinin müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi tibb müəssisələrində ixtisaslı tibb işçiləri tərəfindən hərbi qulluqçulara tibbi yardımın keyfiyyətli göstərilməsi, eləcə də şəxsi heyət arasında xəstəliklərin yayılmasının vaxtında qarşısının alınması məqsədilə mütəmadi olaraq profilaktik tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıqları iştirakçıların diqqətinə bir daha çatdırılıb.

Sonda hərbi tibb sahəsi üzrə mövzulara dair ətraflı müzakirələr aparılıb.

# Prezident təqaüdçüsü Fatma Səttarova 102 yaşını qeyd edib



Yanvarın 25-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı, Prezident təqaüdçüsü Fatma Səttarova 102 yaşını qeyd edib.

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (RİMM) AZƏRTAC-a bildirilib ki, Bakıdakı Rus evinin rəhbəri İrek Zinnurovun başçılıq etdiyi nümayəndə heyəti Fatma Səttarovanı doğum günü münasibətilə təbrik edib və sovet qoşunları tərəfindən Leninqradın faşist blokadasından tam azad edilməsinin 80-ci ildönümü ərəfəsində ona çiçək dəstələri və xatirə hədiyyələri təqdim edib.

Görüş əsnasında Fatma Səttarova qonaqlara rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verib, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ona hədiyyə etdiyi qol saatını göstərib.

# Hərbi qulluqçumuz Çin Hərbi Akademiyasını fərqlənmə ilə bitirib



*Çinin Nankin şəhərində yerləşən Çin Xalq Azadlıq Ordusunun Quru Qoşunları Akademiyasının "Orta Komanda Kursu"nun növbəti buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun zabiti polkovnik-leytenant Elxan Fərzəliyev akademiyanı fərqlənmə ilə bitirərək qırmızı diploma və əlaçı döş nişanına layiq görülüb.

Qeyd edək ki, bu il ali hərbi təhsil müəssisəsində 55 ölkədən 73 xarici hərbi qulluqçu təhsil alıb.

# Əməliyyat-taktiki fakültənin dinləyicilərinin növbəti buraxılış mərasimi keçirilib

Yanvarın 26-da Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Əməliyyat-taktiki fakültənin təkmilləşdirmə kursunun növbəti buraxılışına həsr olunan mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi İdarəetmə İnstitutunun rektoru, milli təhlükəsizlik və hərbi elmlər doktoru, professor, polkovnik Bəbir Quliyev kursu müvəffəqiyyətlə bitirən zabitləri müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar və yeni nailiyyətlər arzulayıb.



Ali Baş Komandanın göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılması istiqamətində görülən işlər və bu cür kursların əhəmiyyəti xüsusi vurğulanıb.

Çıxış edən məzunlar öz növbələrində Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbərliyinə, professor-müəllim heyətinə bütün dinləyicilər adından dərin minnətdarlıqlarını bildirib, kurs müddətində əldə etdikləri bilik və bacarıqları tabelikdə olan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının artırılmasında tətbiq edəcəklərinə söz veriblər.

Sonra Əməliyyat-taktiki fakültənin məzunlarına fəxri fərman və sertifikatlar təqdim olunub.

## Gənc zabitlərimiz

# Xarıbülbülünə qovuşan Vətən bağı al-əlvandır

2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsinin iştirakçılarından biri də baş leytenant Novruz Vəliyevdir. Onunla "N" hərbi hissəsində söhbətləşib həyat və döyüş yoluna nəzər saldıq.

Uşaqlıqdan hərb peşəsinə böyük rəğbət bəslədiyini deyən Novruz bu arzusunu tez bir zamanda gerçəkləşdirib hərbi mundir daşımaq istəyindən danışdı. Bu fikrə necə gəldiyini soruşduqda isə öyrəndik ki, onun hərbi peşəni seçməsində əsas rolu oynayanlar qonşuluqlarında yaşayan hərbçilər olublar.

Keçmişə qayıdıb uşaqlığını və xatirələrini yada salmağa çalışan zabitin gözlərindəki işığı görmək bizlərə də xoş təsir bağışladı: - Gözümü açıb həyatı dərk etməyə başlayandan görmüşəm ki, hər insan özünə uyğun bir peşəni seçib ömrünün müəyyən anına qədər bu işlə məşğul olur. Düşünürdüm ki, bu seçim olduqca məsuliyyətli və dəqiq olmalıdır. Qonşuluqda yaşayan insanlardan bəzilərini hərbi formada görürdüm. Hər dəfə onların peşələrinin necə olduğunu, nə kimi işlərlə məşğul olduqlarını düşünürdüm. Suallarım gündən-günə artırdı. Ailə ağsaqqalları bir yerə toplaşdıqda hər mövzuda söhbət edərkən hərbi xidməti "kişilik məktəbi" adlandırırdılar, - deyərək bir qədər fikrə daldı.



Qısa müddət sonra yaddaşında canlanan yeni xatirələri təzədən qısa şəkildə nəql etməyə başladı. "2003-cü ildə doğulub boya-başa çatdığım Qazax rayonunun Qaymaqlı kəndində orta məktəbi bitirib, Qazax Müəllimlər İnstitutunun filologiya fakültəsinə qəbul oldum. Burada təhsilimi başa vurduqdan sonra 2007-ci ildə hər dəfə haqqında xoş fikirlər səsləndirilən hərbi xidmətə yollandım. Burada görüb öyrəndiklərim mənə böyük həyat dərsi olmuşdu. Artıq böyüklərin ağzından danışdığı hərbi xidmətin sirlərinə mən də yavaş-yavaş yiyələnirdim. 2008-ci ildə hərbi xidmətimi tamamlayıb orta məktəbdə müəllim kimi işləməyə başladım. Ancaq qəlbimdə olan hərb sevgisi məni rahat buraxmır, tez-tez düşünməyə vadar edirdi. Artıq qərarımda qəti idim - mən zabit olacağam. Belə də etdim... Bir müddət keçdikdən sonra "Ehtiyat zabit hazırlığı kursu"nu başa vurub "N" hərbi hissəsinə təyinat aldım".

Təhsil xatirələri bitdikdən sonra baş leytenant Novruz Vəliyevin döyüş təəssüratlarından danışdıq. O, Ali Baş Komandanın döyüş əmrinə uyğun olaraq, Vətən müharibəsi başlayanda döyüşənlərin sırasında olub. Ağdam istiqamətindən döyüşlərə başlayan Novruz Vəliyev verilən tapşırıqları müvəffəqiyyətlə icra edib. Döyüşlər bitdikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Zabit söhbətimizi yekunlaşdırarkən bir əlavə də etdi: - Döyüşlərdən sonra doğma torpaqlarına geri qayıdan əhalinin duyğu dolu anlarını, hekayələrini izləmək hər birimizin könlünə toxunmağı bacarır. Bu yaxınlarda izlədiyim bir görüntü mənə olduqca xoş təsir etdi. Nənəsi doğma yurdlarından köçkün düşməzdən qabaq çəmənlikdə tək qalan armud ağacını nəvəsinə tapşırır. 30 ilə yaxın zaman keçdikdən sonra yenidən yurduna qayıdan nəvə tək qalmış bu yadigar ağacı öpüb qucaqlayaraq onunla söhbət edir. Gözləri dolan sakin "armud, sən də mənim kimi qocalmısan", - deyib, budaqlarına əl gəzdirir. Həmin görüntüləri izlədikcə anlayırıq ki, bu söhbət nənənin nənə ilə, yurdla, dəyərləri ilə olan söhbətidi, bəlkə də naləsidi. Uzun müddət Vətən bağının rəngarəngliyi Xarıbülbülsüz solub payıza çevrilmişdi. İndi Xarıbülbülünə qovuşan Vətən bağı yenidən al-əlvandır.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Lənkəranda görkəmli sərkərdə Həzi Aslanovun xatirəsi anılıb



*Müdafiə Nazirliyi və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunan tədbir keçirilib.*

AZƏRTAC xəbər verir ki, əvvəlcə Müdafiə Nazirliyinin rəsmiləri, müharibə veteranları, hərbi qulluqçular, ictimaiyyət nümayəndələri, eləcə də əfsanəvi sərkərdənin ailə üzvləri Lənkəran şəhərindəki Həzi Aslanov adına Xatirə parkını ziyarət edib, unudulmaz qəhrəmanın abidəsi önünə əkil qoyub, qərənfillər düzüb və xatirəsini ehtiramla yad ediblər.

Həzi Aslanov haqqında bir neçə kitabın və səhnə əsərinin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani qəhrəmanın həyat və şanlı döyüş yolu barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, Həzi Aslanov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yüksək dəyər verdiyi sevimli qəhrəmanlardandır. Ulu Öndər hələ otuz il öncə indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Həzi Aslanovun abidəsinin açılışına həsr olunmuş təntənəli mərasimdə demişdi: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır. Həzi Aslanovun həyat yolu, qəhrəmanlığı, İkinci Dünya müharibəsində xidmətləri bütün Azərbaycan gənclər üçün örnəkdir".

Nəzərə çatdırılıb ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün başladığı Vətən müharibəsindən bir neçə ay öncə Azərbaycan Prezidenti Həzi Aslanovun 110 illiyi ilə bağlı Sərəncam verməsi heç də təsadüfi deyildi. Bu Sərəncam Azərbaycan əsgərini işğal altında olan torpaqları azad etmək üçün hər an müqəddəs savaşlara hazır olmağa çağırırdı. Vətən müharibəsində digər qoşun növlərində xidmət edən hərbi qulluqçularımız kimi Həzi Aslanovun davamçıları olan tankçılarımız da "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" deyib döyüş meydanlarına atılaraq Zəfər dastanı yazdılar.

Tədbir iştirakçıları, eyni zamanda, Həzi Aslanovun ev muzeyini ziyarət ediblər. Həzi Aslanovun 114 il əvvəl dünyaya göz açdığı indiki muzeyin geniş ekspozisiya salonlarında nümayiş etdirilən hər bir xatirə əşyası və digər eksponatlar barədə ətraflı məlumat verilib.

Nəvə Həzi Aslanov ata və əmisindən, nənəsi Xavər xanımdan eşitdiklərini bir daha xatırlayıb, Ulu Öndər Heydər Əliyevlə görüşlərini yada salıb.









Lənkəran şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Əlimərdan Əliyev, şəhid Milli Qəhrəman Əsgər Əliyevin atası Ələkbər Əliyev, hüquq elmləri doktoru, professor İbrahim Quliyev, hərbi qulluqçu Rüstəm Əliyev və başqaları çıxış edərək ölkəmizdə ata-babaların qəhrəmanlıq ənənələrinin uğurla davam etdirilməsindən, qazanılan böyük Qələbədən, Xankəndi şəhərində keçirilən möhtəşəm hərbi paraddan, Azərbaycan Ordusunun rəşadətindən, ordu ilə xalqın birliyindən, həmrəyliyindən, hərb tariximizin təbliği məqsədilə həyat keçirilən tədbirlərdən bəhs ediblər.



Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin hazırladığı "Həzilər yurdunun qəhrəmanları" və Lənkəran şəhər musiqi məktəbinin təqdim etdiyi musiqi kompozisiyası maraqla qarşılanıb.

Əməkdar artist polkovnik-leytenant Cahangir Qurbanovun ifa etdiyi "Böyük Zəfər" marşı ilə mərasim başa çatıb.

## Nümunəvi xidmət

# Hər bir Vətən övladının borcu Vətənin keşiyində layiqincə dayanmaqdır

Günümüzdə rabitə əlaqəsi müqayisəyəgəlməz dərəcədə vacib bir məfhum, zəruri sistemdir. Yaxınlarımızla yerindən, vaxtından asılı olmayaraq qurulan rabitə əlaqəsi iki və daha çox fərd arasında qurulan körpüyə çevrilir, onları bir-birinə ruhən yaxınlaşdırır. Birmənalıdır ki, gündəlik həyatımızda rabitə bizim üçün nə qədər önəmlidirsə, hərb sahəsində rabitənin önəmi ondan daha çoxdur. Savaş zamanı əməliyyatın təşkili öncə planlaşdırılmadan başlayırsa, onun idarə olunması rabitə ilə davam etdirilir. Məlumdur ki, rabitə təminatının düzgün səviyyədə, (dayanıqlı, keyfiyyətli, etibarlı, operativ, fasiləsiz) şəkildə təşkil olunması döyüş meydanında insan itkisi riskini azaldır, hətta sıfıra endirir. Tarixi torpaqlarımızın azad olunmasında təcrübəli rabitəçilərimizin üzərinə məsuliyyətli və ağır tapşırıqlar qoyulmuşdu ki, igid hərbçilərimiz bu işin də öhdəsindən layiqincə və ləyaqətlə gəlməyi bacardılar. Qoşun növləri, habelə bölmələr və qərargahlar arasında əlaqənin qurulmasında, döyüş fəaliyyətinin səmərəliliyinin artırılmasında, düşmən qüvvələri haqqında zəruri məlumatların (yerləşdiyi koordinasiya, təşkil olunduğu bölmələrin növü və s.) ötürülməsində cəsur rabitəçilərimizin ötürdüyü məlumatlardan maksimum istifadə olundu və qazanılan qələbələrdə onlar da mühüm pay sahibi oldular.

"N" hərbi hissəsinin rabitə qovşağında döyüş növbətçiliyini təşkil edən əsgər Musa Paşayevlə həmsöhbət olduq. "Məlumdur ki, rabitə bölmələrinin üzərinə prekonflikt, konflikt, postkonflikt dövründə məsuliyyətli vəzifələr düşür. Bölmələr və qərargahlar arasında koordinasiyanı təmin etməklə əməliyyatın idarə olunması, gündəlik zəruri məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə ötürülməsi, operativliyin təmin edilməsi və planlaşdırılmış hərbi fəaliyyətlərin icrasında etibarlı, dayanıqlı, fasiləsiz və operativ rabitə əlaqəsinin olması şərtdir. Təcrübəli komandirlərim tərəfindən keçirilən dərslərdə bu ixtisasın nəzəri və praktiki biliklərini dərindən mənimsəmişəm. Məşğələlərdə bizə təhkim olunmuş rabitə vasitələrindən istifadə, tətbiqlərin ardıcıllığı, tezliklərin qurulması, yaranan nasazlığın aradan qaldırılması, komandaların qəbul edilməsi və ötürülməsi üzrə zəruri bilikləri yaxşı öyrənmişəm. Hərb sahəsinin hər ixtisası kimi, rabitə ixtisası da öz spesifikliyi, məsuliyyəti və vacibliyi ilə seçilir. Bu ixtisas çoxşaxəli olduğu qədər də maraqlıdır. Rabitə sahəsində məxfilik və təhlükəsizlik də xüsusi diqqət yetirilməli məsələlərdir. Bölmələrarası rabitənin düzgün qurulması üçün zəruri tapşırıq və məlumatların dəqiq öyrənilməsi və aidiyyəti üzrə çatdırılması üçün rabitə xidmətinin operativ, etibarlı və düzgün təşkil edilməsi vacibdir. Bunun üçün də komandirlərim tərəfindən verilən tapşırıqları həvəslə yerinə yetirirəm. Nümunəvi xidmətimlə həm valideynlərimin, həm də komandirlərimin mənə olan ümidlərini layiqincə doğrultmağa çalışıram. Hər bir Vətən övladının borcu Vətən keşiyində layiqincə dayanmaqdır. Bu gün müqəddəs vəzifənin icraçısı olan bizlər Vətənə övladlıq borcumuzu ödəyirik".



**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

*İctimai-siyasi hazırlıq*

## Şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti böyükdür

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarına əsasən, hərbi hissələrdə günün nizam qaydalarına uyğun olaraq ictimai-siyasi hazırlıq dərsləri keçirilir. Keçirilən bu dərslər şəxsi heyətdə yüksək döyüş hazırlığının saxlanılmasında, döyüş tapşırıqlarının məsuliyyətlə yerinə yetirilməsində, hüquqi qaydanın və hərbi intizamın möhkəmlənməsində şəxsi məsuliyyət hissinin yüksəldilməsinə yönəldilir.

"N" hərbi hissəsində olduğumuz zaman baş leytenant Kənan Rzayevin keçirdiyi ictimai-siyasi hazırlıq dərsinin gedişatı ilə tanış olduq. Dərs prosesi yekunlaşdıqdan sonra zabitə yaxınlaşıb həmsöhbət olduq. İctimai-siyasi hazırlıq dərsinin məqsədindən danışan qrup rəhbəri dedi:

- Bu dərslərin məqsədi ilk öncə Azərbaycanda dövlətçilik, müstəqillik uğrunda mübarizəni və ordu quruculuğu tarixini, xalqımızın milli-mənəvi dəyərlərini, hərbi ənənələrini, Vətən uğrunda gedən döyüşlərdə göstərilmiş qəhrəmanlıq nümunələrini təbliğ etməkdir. Sonra regionda yaranmış hərbi-siyasi vəziyyət, dövlət rəhbərliyinin Azərbaycan Respublikasının müstəqilliyini təmin etmək, müdafiə qüdrətini yüksəltmək üçün apardığı daxili və xarici siyasət barədə dinləyicilərə ardıcıl, məqsədyönlü, sistemli biliklər verməkdir. Həmçinin şəxsi heyətin şüurunda Vətənə və Azərbaycan xalqına hədsiz məhəbbət, Müzəffər Ali Baş Komandanına və Hərbi Anda sədaqət, dövlətin və xalqın mənafeyinin müdafiə edilməsini, dövlətçiliyin qorunub saxlanılmasında digər hərbi qulluqçulara örnək olmaq, Azərbaycan tarixinin, əcdadlarımızın və adət-ənənələrinin layiqli davamçısı və azərbaycançılıq, vətənpərvərlik, dini tolerantlıq ruhunda, nizamnamələrin tələblərinə, komandirlərin əmrinə sözsüz tabe olmaq, hərbi borcun şüurlu yerinə yetirilməsini və Vətən müdafiəçilərində yüksək mənəvi döyüş ruhunu tərbiyə etmək, onları mənəvi-psixoloji hazırlığını təkmilləşməsinə istənilən şəraitdə döyüş tapşırığını yerinə yetirmə əzminin yüksək səviyyədə saxlanılmasına yönəltmək, öz vəzifə borcunu yerinə yetirməyə səfərbər etməkdir.



Beləliklə, biz də üzərimizə düşən vəzifə borcunu layiqincə yerinə yetirməyə çalışırıq. Şəxsi heyətə döyüş, atəş və fiziki hazırlıqla yanaşı, ictimai-siyasi hazırlıq dərslərini keçərək onları hərtərəfli hazırlıqlı və peşəkar döyüşçü kimi yetişdiririk. Bütün bunların nəticəsidir ki, şəxsi heyət qarşıya qoyulan istənilən tapşırıqları asanlıqla icra etməyə hər an hazır və qadirdir. Rəşadətli Azərbaycan Ordusunun son illər həyata keçirdiyi döyüş əməliyyatları bunun bariz nümunəsidir. Məğrur oğullarımızın hünəri, gücü, qüdrəti, qorxmazlığı və cəsarəti sayəsində illərdir işğalda qalan tarixi torpaqlarımız azad olunaraq, gerçək sahibinə qovuşdu.

Ordu sıralarına Yevlax rayonundan çağırılan əsgər Rəşad Səlimov bildirdi ki, keçirilən dərslər sayəsində onlar hərb tariximizi, milli-mənəvi dəyərlərimizi, torpaqlarımızın suverenliyi və ərazi bütövlüyü uğrunda xüsusi qəhrəmanlıq nümayiş etdirən məğrur oğullarımızın həyat və döyüş yollarını daha yaxından öyrənirlər. Belə cəsur igidlərimizin və qəhrəman şəhidlərimizin həyat və döyüş yolları hər birimizə örnək bilirik.

Daha sonra R.Səlimov komandanlıq tərəfindən onlar üçün yaradılan şəraitdən də söz açdı. Dedi ki, bütün sosial-məişət şəraitimiz olduqca yüksək səviyyədədir. İsti və müasir çarpayılarla təchiz olunmuş yataqxanalarımız, fiziki hazırlığımızı daim yüksək səviyyədə saxlamağımız üçün inşa edilən idman şəhərciyimiz, öz ixtisasımızı daha dərindən öyrənməyimiz üçün yaradılan mühəndis şəhərciyi, asudə vaxtlarımızı səmərəli keçirməyimiz üçün bütün standartlara cavab verən ideoloji otağımız xidmətimizi daha yaxşı etməyimizə zəmin yaradır. Bunlarla yanaşı, komandirlərimiz də hər zaman qayğımıza qalır, yaranan istənilən problemlərimizi anında həll edirlər. Göstərilən bu cür diqqət və qayğının qarşısında üzərimizə düşən yeganə vəzifə xidmətimizi düzgün təşkil edib, ana Vətənimizə olan övladlıq borcumuzu layiqincə yerinə yetirməkdir. Hər birimiz inanırıq ki, bizlərə göstərilən bu etimadı doğruldacaq, Azərbaycan əsgəri adına layiq olacağıq.

Digər həmsöhbətim İsmayıllı rayonundan hərbi xidmətə çağırılan əsgər İlham Əliyev oldu. O da əsgər yoldaşının sözlərinə qoşularaq sosial-məişət şəraitlərindən və ictimai-siyasi hazırlıq dərslərinin qaydalarından danışdı. Əlavə olaraq, rəşadətli Azərbaycan Ordusunda xidmət etməyin şərəf və qürurundan danışdı.

"Məktəb illərində müəllimlərimizdən erməni vandallarının xalqımızın başına açdığı əzab-əziyyətləri dinlədikcə, çəkilən fotoşəkilləri gördükcə qəzəbim və nifrətim gündən-günə daha da artırdı. Buna görə də məktəbi bitirib əsgər olmaq, xalqımızın qisasını alanlardan olmaq istəyirdim. Yalnız mən şagird olduğum dövrdə rəşadətli ordumuz Müzəffər Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatlarına başladı. Düzdür, həmin an pis oldum ki, döyüşlərə qatıla bilmədim. Digər tərəfdən isə sevincimin həddi-hüdudu yox idi. Hər gün xəbərləri izləyir, Müzəffər Ali Baş Komandanımızın çıxışlarını dinləyirdim. Ordumuz irəlilədikcə fərəhlənirdim. Xalqımız ordumuza hərtərəfli dəstək olub qələbəsinə inanırdı. Cəmi 44 gün ərzində şəhidlərimizin və bütün soydaşlarımızın qisası alınaraq, tarixi ədalət bərqərar oldu. Bununla da ordumuz hərb tariximizə şanlı qələbəmizi qızıl hərflərlə yazdı. Bu gün qalib Azərbaycan Ordusunun əsgəri olduğum üçün qürur duyuram. Məğrur döyüşçülərimizin şücaəti və şəhidlərimizin qəhrəmanlığı sayəsində azad edilən torpaqlarımızı müdafiə etmək hər birimizin başlıca və müqəddəs borcudur. İnanırıq ki, bu məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən layiqincə gələcəyik".

Əsgərlər Hacıbala Abbasov, Bayram Qafarov, Nihat Abbasov, Yadigar Hacıyev və digərləri ictimai-siyasi hazırlıq dərslərinin mahiyyətindən, keçirilməsindən və bu dərsə xüsusi önəm verildiyindən, onlara göstərilən diqqət və qayğıdan, sosial-məişət şəraitlərindən, peşəkar komandirlərinin onlara bəslədiyi rəğbətdən və həvəslə keçirdiyi xoş günlərindən danışdılar.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Əsgəri xidmət sıradan başlayır

"N" hərbi hissəsində bölmə komandiri kapitan Mehman Gülümcanlının rəhbərliyi altında keçirilən sıra hazırlığı məşğələsinin şahidi olduq. Sıra hazırlığının fənn və üsullarını öyrənən əsgərlərin ayaq səsləri hər kəsin diqqətini özündə cəmləyirdi. Gənclərin ayağını eyni anda yerə vurmasından yaranan səs dalğası və verilən komandaları cəld yerinə yetirərək nizamlı şəkildə sağa-sola, geriyə dönmələri xoş ovqat aşılayırdı. Əlbəttə, belə vətənpərvər, igid oğulların qarşısında heç bir düşmən tab gətirə bilməz.

Kapitan Mehman Gülümcanlının kifayət qədər bacarıqlı və savadlı olduğu, seçdiyi peşəyə ürəkdən bağlılığı elə məşğələnin gedişatını izlədikcə hiss olunurdu. Müşahidələr də onu göstərdi ki, məşğələlər səmərəli keçir. Mövcud əyani vasitələrdən, tədris imkanlarından yetərincə bəhrələnən məşğələ rəhbəri dərs prosesində əsgərlərə hərbi bilikləri hərtərəfli öyrətməyə çalışır. Əsas məqsəd şəxsi heyətdə döyüş vərdişlərini aşılamaq və ruh yüksəkliyi yaratmaqdır. Məşğələnin rəhbəri kapitan Mehman Gülümcanlı bildirdi ki, hərbi peşənin ən mühüm və vacib şərtlərindən biri intizamdır ki, bu da sıradan başlayır. "Hər gün məşğələyə başlamazdan əvvəl bu sıralarda Vətən uğrunda canlarından keçən qəhrəman oğullarımızın igidliklərindən və sıranın müqəddəsliyindən danışıram. 44 gün ərzində doğma Qarabağımızı öz canı bahasına azad edən oğulların hər biri nə vaxtsa sırada durub və sıranın müqəddəsliyinin bariz nümunəsinə çevrilib. Sıra hazırlığı məşğələsində şəxsi heyətə hərbi qulluqçuların silahsız və silahla sıra hərəkətləri və yerişi, bölmə və hissələrin piyada və nəqliyyat vasitələrində sıraları, əsgəri salamlaşma qaydaları, sıra baxışının keçirilməsi, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borcları, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydaları öyrədilir. Bugünkü məşğələmizdə əsgəri salamlaşma, rəisə yaxınlaşma, hərəkətdə dönmələr və digər sıra elementləri aşılanır. Sırada dayanan hər kəs verilən tapşırıqları uğurla yerinə yetirir".



Əsgər Rəhim Aslanov ilə söhbətləşdim. "Əsgəri xidmət keçməklə müharibədən sonra belə Vətənimizin keşiyində durmalıyıq. Hamımız bilirik ki, düşmən öz hiyləgərliyi ilə hər an təxribata əl ata bilər, ona görə də biz hər zaman ayıq-sayıq xidmət aparmalıyıq, komandirlərimizin verdiyi tapşırıqları vaxtında yerinə yetirməliyik, ən əsası da təzə gələn əsgərlərə nümunə olaraq bunların hamısını aşılamalıyıq", - Rəhim dedi.

Əsgər Emil Adilov da sıra hazırlığından söz açaraq dedi: "Bizə Vətənin keşiyində dayanmaq kimi müqəddəs vəzifə tapşırılıb. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün keçirilən məşğələlərdə fəal iştirak edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir, peşəkar komandirlərimizin nəzarəti altında hərbin sirlərinə dərindən yiyələnir və hər zaman intizamlı əsgər olmağa çalışırıq. Döyüş, atəş, fiziki və sıra hazırlıqlarını, silahlardan istifadə etməyi, döyüş bacarıqlarını öyrənirik. Keçirilən dərslər nəticəsində bilik və bacarıqlarımız yüksək səviyyədədir. Döyüş ruhumuz yüksəkdir".

Əsgər Tural Paşayev də ordu sıralarında xidmət etdiyindən qürur duyduğunu bildirdi: "Əsgər olmaq hər birimizin uşaqlıq arzusudur. Mənim üçün hərbi formanı geyinib, qürur mənbəyimiz olan ordumuzun sıralarında dayanmaqdan böyük sevinc ola bilməz. Günlər keçdikcə təcrübəli əsgər kimi formalaşır, yeni döyüş vərdişlərinə yiyələnirik. Bu gün sıra meydanında öyrədilən elementlər mənim Azərbaycan Ordusuna layiq olan bir əsgər kimi formalaşmağımda bir vasitədir. Xidmətdə hər şey məhz sıra hazırlığından başlayır. Fəxr edirəm ki, torpaqlarımız uğrunda şəhid olan oğullarımızın durduğu həmin o sıralardan birində durmuşam. Bu, məni tərxis olunduqdan sonra belə ordu sıralarında qalmağa valehləndirir".

Əsgər Məhəmməd Qəribov Vətən keşikçisi olduqdan qürur duyduğunu dedi: "Hərbi xidmətə gəldiyim ilk gündən çalışmışam ki, hərbi bilik və bacarıqları yüksək səviyyədə öyrənim. Komandirlərimiz sağ olsunlar ki, bizə hərbi bilikləri öyrədirlər. Dərslərdə öyrəndiyimiz biliklər gələcəkdə Azərbaycan Respublikasının adına layiq bir vətəndaş olmağımın da qarantıdır".

Əsgərlərdən Hikmət Əsədov, Metin Nuri və başqaları da öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, Vətənə sədaqətlə xidmət etdiklərini bildirdilər.

Əsgərlərin hər birinin ürəyində sonsuz Vətən sevgisi olduğunu hiss etdim. Hər biri xidməti ilə sübut edir ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz və cəsurdur. Vətən uğrunda hər an döyüşə atılmağa hazırdır.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Erməni terrorizmi və separatizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü

***Suallar:***

*1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.*

*2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi.*

### Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi

Şərqlə Qərbin, Avropa ilə Asiyanın birləşdiyi, İslam və xristian sivilizasiyaları arasında, mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişmə nöqtəsində, geosiyasi cəhətdən əhəmiyyətli zonada yerləşən və zəngin karbohidrogen resursları olan, Qafqazın ən böyük potensiala malik ölkəsi - Azərbaycan bu üstünlükləri ilə daim diqqət mərkəzində olub. Nəinki yalnız qonşu ölkələr, hətta dünyanın böyük dövlətləri də Azərbaycanın yerləşdiyi bu regionda öz mövqelərini möhkəmlətməyə çalışmışdır və hal-hazırda da bu proses davam edir.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

XIX əsrin əvvəllərində Rusiya və İran imperiyaları arasında Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin imzalanmasına qədər olan dövrdə Azərbaycan ərazisində dövlət idarəçiliyi qurumları xanlıqlar olmuşlar. 1804-1813, 1826-1828-ci illərdə Rusiya-İran müharibələrinin gedişində və sonralar ermənilərin İran və Türkiyədən Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı süni şəkildə artırılmışdır. 1826-1828-ci illərdə İrandan Qafqaza, o cümlədən Qarabağa on minlərlə erməni ailəsi köçürülmüşdür. Türkmənçay müqaviləsinin şərtləri maneəsiz olaraq ermənilərin İrandan köçməsinə şərait yaradırdı ki, bu da onların Qafqazda, o cümlədən Naxçıvan, Qarabağ, İrəvan mahallarında sərbəst şəkildə məskunlaşmasına imkan yaratdı. Rusiya imperiyası ilə Osmanlı dövləti arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda Ədirnə sülh müqaviləsi bağlanıldı. Türkmənçay müqaviləsinə görə 40 000 ermənin, Ədirnə müqaviləsinə görə isə, 90 000 erməninin İran və Anadoludan İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi razılaşdırılmışdı və bununla da ermənilərin Azərbaycan torpaqlarına kütləvi yerləşdirilməsi əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi və yerli əhalinin sıxışdırılması prosesinə başlanıldı. Bu ərazilərin köklü sakinləri olmayan ermənilər həmin torpaqlarda məskunlaşdıqdan sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüşlər.

Çarizmin apardığı işğalçı müharibələr nəticəsində XIX əsrin 20-30-cu illərindən etibarən Cənubi Qafqaza köçürülərək yerləşdirilmiş ermənilər bir müddət sonra silahlı dəstələrini yaradaraq azərbaycanlıları təhdid etməyə, böhranlı anlarda onlara qarşı kütləvi qırğınlar həyata keçirməyə başladılar. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci, 1915-1920-ci illərdə Bakıda, bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı, eyni zamanda, Azərbaycana qarşı ərazi iddiaları siyasətinin ilkin mərhələləri idi. 1918-ci ildə Cənubi Qafqazda heç bir zaman olmayan Ermənistan adlı bir dövlət elan edildi. Azərbaycanlılara qarşı terror və soyqırımı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırıldı. 1920-ci ildə Azərbaycan və Ermənistan bolşevik Rusiyası tərəfindən işğal edilib sovetləşdirildikdən sonra da ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi, onların sıxışdırılması, Azərbaycan ərazilərinin Ermənistana verilməsi siyasəti davam etdirildi. Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə Azərbaycanın təxminən 20.000 kvadrat km-dən artıq ərazisi Ermənistan Respublikasının tərkibinə qatıldı. 1923-cü il iyulun 7-də isə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi İcraiyyə Komitəsi "İnzibati mərkəzi Xankəndi olmaqla, Dağlıq Qarabağda Muxtar Vilayətin yaradılması haqqında" qərar qəbul etdi. Xüsusən qeyd olunmalıdır ki, Ermənistan SSR-in sərhədləri daxilində kompakt şəkildə yaşayan 300.000-dən artıq azərbaycanlıya hər hansı formada muxtariyyət hüququnun təqdim edilməsindən imtina edildi.

Azərbaycan xalqı sovet imperiyasının tərkibində də terrora, kütləvi qırğınlara, deportasiyalara məruz qalmışdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına - deportasiyaya məruz qalmış, öz tarixi vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdir. Bu illərdə həyata keçirilən azərbaycanlıların növbəti deportasiyası zamanı ermənilərin xüsusilə diqqət mərkəzində saxladıqları məsələ iqtisadi, sosial və mənəvi cəhətdən güclü, strateji əhəmiyyətli azərbaycanlı yaşayış məntəqələrinin boşaldılması idi. Bu səbəbdən ilk mərhələdə İrəvan şəhəri yaxınlığındakı yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, sonra isə rayon mərkəzləri, ətraf kənd və qəsəbələrin əhalisi köçürülmüşdür. Deportasiya tədbirləri ümumilikdə Ermənistanın 22 rayonunu əhatə etmiş və azərbaycanlıların yaşadıqları ərazilərdə həyata keçirilmişdi. Eyni zamanda, Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı həyata keçirilmişdir. 1921-1988-ci illərdə Ermənistanda yüzlərlə türk mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin (DQMV-nin) ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçdilər. Bununla, 1917-ci ilin fevralında çar hökumətinin yıxılması nəticəsində meydana gələn tarixi şəraitə bənzər vəziyyət SSRİ-nin dağılmasından sonra yenidən təkrar olundu.

1987-ci ilin sonlarında Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlamışdır. 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşdilər.

1988-ci ilin fevral hadisələrindən sonra keçmiş "DQMV"-nin separatçı-terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri Azərbaycanın tarixi torpaqlarının ələ keçirilməsi məqsədlərini həyata keçirməyə başladılar. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etdi. Azərbaycana qarşı ərazi iddiaları təkcə millətçi qruplar tərəfindən deyil, həm də Ermənistanın hakimiyyət strukturları tərəfindən irəli sürülürdü. Həmin dövrdə Azərbaycan siyasi elitasının fəaliyyətsizliyi, respublikada siyasi liderin olmaması vəziyyəti daha da çətinləşdirirdi. Proseslərin gedişini hərtərəfli təhlil etməyi bacaran, məsələlərin həlli üçün xalqın iradəsini, prinsipial mövqeyini görən, əhalini vahid məqsəd uğrunda səfərbər edə bilən uzaqgörən şəxsiyyət, görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu dövrdə məcburi istefada idi. Onun siyasətdən uzaqlaşdırılması münaqişənin ermənilərin istəyinə uyğun olaraq daha da dərinləşməsinə bilavasitə təsir göstərdi.

1991-ci ilin sonlarına qədər açıq şəkildə ərazi iddiaları səsləndirən Ermənistan Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başlamaqla münaqişə yeni "qaynar mərhələ"yə keçdi. Hərbi kampaniya dövründə Ermənistan silahlı qüvvələri hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirib. Azərbaycanlılar etnik təmizləməyə və soyqırımına məruz qalıblar. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı və Edilli kəndlərində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, keçmiş "Dağlıq Qarabağ"da yaşayan azərbaycanlı mülki əhalinin bir hissəsini fiziki cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü.

1993-cü ildə Ermənistanın şiddətlənən hərbi təcavüzü, eyni zamanda, Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, hərc-mərclik, iqtisadi böhran, dövlət institutlarının iflic olması ölkəni məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Məhz bu kritik anda Azərbaycan xalqı öz qurtuluşunu dahi oğlu, müdrik dövlət xadimi Ulu Öndər Heydər Əliyevdə gördü və ölkənin gələcək taleyini ona etibar etdi. Ermənistan işğalçılarına qarşı mübarizədə Azərbaycanın hərbi-iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. Bu məqsədlə Ulu Öndər Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi. Bunun nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaratmaq mümkün oldu. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş Vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar nəinki Ermənistanı, həmçinin onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı. Azərbaycanın düşmən üzərində hərbi uğurları sayəsində 1994-cü ildə atəşkəsə nail olundu. Bu vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfərdən çox azərbaycanlı hərbi əməliyyatlar dövründə öldürülmüşdür.

2016-cı ilin aprel və 2020-ci ilin iyul ayında Ermənistan yenə hərbi təxribata əl ataraq qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı ərazilərə, o cümlədən məktəblərə, xəstəxanalara və ibadət yerlərinə atəş zərbələri endirdi. Ermənistanın təcavüzkar, hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul etməsi, Ermənistanda Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak edəcək mülki vətəndaşlardan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılması, Ermənistanın müdafiə nazirinin "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, bu ölkənin rəsmi şəxslərinin Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna zərbə endirmək hədələri, Ermənistanın müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb etməsi, külli miqdarda silahlar tədarük etməsi və s. Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını açıq şəkildə nümayiş etdirdi. Lakin təəssüf ki, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün dünya birliyi tərəfindən heç bir praktiki addım atılmadı. Bundan daha da ürəklənən Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrinə şiddətli atəş zərbələri endirdi. Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başladı və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məhv etməyə, onu diz çökdürməyə, işğala məruz qalmış əraziləri azad etməyə nail oldu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən icra edilmiş "Dəmir Yumruq" əməliyyatı və Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmin şöhrətləndirilməsini dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi.

Azərbaycan böyük Zəfəri 44+1 günə təmin etdi. 45 günlük döyüşlər nəticəsində SSRİ-dən qalma terror, qarşıdurma ocağı söndürüldü. Sovetlərin çöküşü qərbi azərbaycanlıların Ermənistandan qovulması, Qarabağın işğalı ilə başlamışdı. Tam qələbə isə kommunist imperiyasının Azərbaycanda köklərinin birdəfəlik kəsilməsi ilə başa çatdı. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır, bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaq.

Bu gün Azərbaycan Ordusu qarşısında respublikanın suverenliyini, ərazi bütövlüyünü və dövlətçiliyin müdafiəsini ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan Ordusunun qüdrətini daha da artıraraq Azərbaycan xalqının əzəli torpaqlarında sülh şəraitində yaşamasını təmin edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Tarix yazan oğullar*

# Ruhu səmamızın keşiyindədir

Ölümü ilə ölümsüzlüyə qovuşan, canından keçərək, torpağı Vətən edən oğullardan biri də ordumuzun şəhid giziri Nəcməddin Natiq oğlu Quliyevdir. O, 21 dekabr 1998-ci ildə Cəlilabad rayonunun Çünzəli kəndində doğulub. Doğma Çünzəli kəndində böyüyüb boya-başa çatan Nəcməddin cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi ilə hər kəs tərəfindən sevilən və seçilən bir gənc olub. Elinə, obasına çox bağlı idi Nəcməddin. Kəndə gələndə sakinlərlə söhbət edər, onların qayğıları ilə maraqlanardı. Ən böyük arzusu da kənd yolunu təmir etdirmək idi.



O, 2017-ci ilin yanvarından 2018-ci ilin iyul ayınadək Əlahiddə Ümumqoşun Ordunun bölmələrindən birində həqiqi hərbi xidmət keçir. 2020-ci ilin iyununda Azərbaycan Ordusu sıralarına geri dönən Nəcməddin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "kiçik çavuş" rütbəsində Bakı qarnizonunda yerləşən "N" hərbi hissəsində xidmətə başlayır. 44 günlük Vətən müharibəsinə də buradan yollanır. Nəcməddin döyüş təcrübəsini də 44 günlük Vətən müharibəsində qazanır. 27 sentyabr 2020-ci il tarixi onun da yaddaşında dərin, qanlı izlər salır. Ən yaxın silahdaşları, dostları 44 günlük Vətən müharibəsində - xalqımızın haqq savaşında şəhid olurlar. Nəcməddin bu ağır itkilərdən sarsılsa da, Böyük Qələbəmizlə qürurlanır. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən ağır döyüşlərdə fəal iştirak edir. Komandirlərinin verdiyi döyüş tapşırıqlarını uğurla yerinə yetirir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Nəcməddin Nadir oğlu Quliyev "Füzulinin azad olunmasına görə" medalına layiq görülür. Xalqımızın Vətən müharibəsində qazandığı Zəfər onu hərbi xidmətə daha da həvəsləndirir.

Nəcməddin müharibədən sonra sənədlərini "Gizir hazırlığı kursu"na təqdim edir və qəbul olunur. Kursu müvəffəqiyyətlə başa vurub xidmət etdiyi "N" hərbi hissəsinin zenit-raket artilleriya batareyasında taqım komandiri təyin edilir. Ötən ilin 19-20 sentyabrında ordumuzun keçirdiyi uğurlu əməliyyat tədbirləri zamanı gizir Nəcməddin Quliyev komandiri olduğu heyətlə döyüş gedən ərazilərdə bölmələrimizin hava hücumundan müdafiəsini təşkil edənlərin sırasında əzmlə dayanır. O da birlikdə qanunsuz erməni hərbi dəstələrinin, separatçıların məhv edilməsində hünər göstərərək, komandirlərinin tapşırıqlarını qətiyyətlə yerinə yetirir. Möhkəm iradəsi, qorxmazlığı ilə həmişə seçilən Nəcməddin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda gedən əməliyyat tədbirləri zamanı şəhidlik zirvəsinə yüksəlir. Sentyabrın 23-də doğulub boya-başa çatdığı doğma kəndi Çünzəlidə torpağa tapşırılır. Ölümündən sonra şəhidin ən böyük arzusu həyata keçir. Kəndə yeni yol çəkilir...

Ruhu səmamızın keşiyində olan Nəcməddin Vətəni Azərbaycana, doğma yurduna, ata-anasına qeyrətli, namuslu, əsl oğul oldu. Vətən torpaqlarının azadlığı uğrunda canından keçərək, düşmənin son tör-töküntülərinin də məhv edilməsində igidlik, fədakarlıq nümunələri göstərdi. Adını şanlı döyüş tariximizə qürurla yazdı Nəcməddin.

Şəhid gizirin atası Natiq Quliyevin dediklərindən: "Onun şəxsi keyfiyyətləri yüksək idi. Ataya, anaya, böyüklərə hörmət şəxsi keyfiyyətlərində cəmlənmişdi. Dostluğa olduqca sədaqətli idi. Döyüşçü yoldaşlarına əsl silahdaş olub. Son damla qanınadək döyüşüb. Hərb sənətinə böyük marağı var idi. Seçdiyi ixtisas üzrə artıq peşəkarlaşmışdı. Həmişə təlimlərdə olurdu. Deyirdi ki, təlimlər döyüş hazırlığımızın artırılmasında böyük rol oynayır. Mən Nəcməddinlə qürur duyuram. O, təkcə biz valideynlərinə deyil, yaşadığı kəndə, elinə, obasına başucalığı gətirdi, şan-şöhrət qazandırdı. Bir ata kimi fəxr edirəm ki, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması zamanı oğlum şəhid gizir Nəcməddin Quliyev də canından keçərək, tarixi torpaqlarımızdan düşməni qovub. Bu gün Nəcməddini təkcə Cəlilabad camaatı deyil, bütün Azərbaycan xalqı tanıyır, onunla qürur duyur".

Anası Gülzar Quliyeva bildirdi ki, Nəcməddinin orta məktəb illərindən hərbi formaya marağı olub. "Deyirdi ki, hərbçi olacaq. Vətənimizin keşiyində dayanacaq. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, o da iştirak edəcək. Atalar sözü var; niyyətin hara, mənzilin də ora. Nəcməddin çətin və şərəfli bir yol seçdi. Onu bu yoldan heç kim döndərə bilmədi. O, Vətən torpaqlarının azadlığı uğrunda yalnız "İrəli" dedi. Övladımın döyüşlərdə göstərdiyi igidliklərdən fəxrlə danışıram. Şəhid Nəcməddinin anası adını qürurla daşıyıram. Allah bütün şəhid analarına səbir versin".

Deyir, igid ölər, adı qalar. Nəcməddinin ruhu Vətən göylərində, adı qəlbimizdədir. Onun əziz xatirəsi daim yad olunacaq, göstərdiyi şücaətlər dastanlara dönüb, ellərdə dolaşacaq.

**Lalə HÜSEYNOVA,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## XİN: Azərbaycan minalanmış bütün ərazilərin dəqiq xəritələrinin Ermənistan tərəfindən təqdim olunmasını gözləyir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistan Milli Təhlükəsizlik Xidmətinin ölkəmizə mina xəritələrinin təqdim olunması niyyəti barədə 2024-cü il 25 yanvar tarixli bəyanatını qeydə alıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin heç bir fərq qoymadan, kütləvi və məqsədyönlü şəkildə minalanması postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına çətinlik törədən əsas təhdidlərdəndir. Ermənistanın bu fəaliyyəti müharibə cinayəti olmaqla yanaşı, beynəlxalq humanitar hüququn və Ermənistanın üzərinə götürdüyü öhdəliklərin ciddi pozuntusudur.

Azərbaycan tərəfi həm 2020-ci il Vətən müharibəsindən əvvəl, həm də postmünaqişə dövründə Ermənistan tərəfindən mina xəritələrinin təqdim olunmasını dəfələrlə tələb edib.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra əvvəlcə, ümumiyyətlə, mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan beynəlxalq təzyiq nəticəsində təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25 faiz təşkil etdiyi məlumdur. Təqdim edilmiş bu xəritələrin yararsız və natamam olduğu, real vəziyyəti əks etdirmədiyi dəfələrlə tərəfimizdən bildirilib. Bu xəritələrdə ərazilərimizdə guya 400 min mina basdırıldığı qeyd edilsə də, reallıqda minaların sayının 1 milyondan artıq olduğu faktı mövcuddur.

Eyni zamanda, qeyd edək ki, son illərdə mina partlayışlarının 55 faizindən çoxu Ermənistan tərəfindən təhvil verilən xəritələrdən kənar ərazilərdə baş verib. Xatırladırıq ki, 2020-ci il Vətən müharibəsinin başa çatmasından etibarən bu günədək 342 nəfər vətəndaşımız mina partlayışından zərər çəkib, onlardan 3-ü jurnalist olmaqla, 65 nəfər həyatını itirib. Həlak olan 65 nəfərdən 50 nəfəri mülki şəxsdir.

2020-ci ildən sonra da Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca Ermənistan tərəfindən bu ölkə istehsalı olan yeni minaların yerləşdirilməsi faktı mövcuddur ki, burada da 500 mindən artıq mina basdırıldığı məlumdur. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac edilmədiyi barədə bəyanatların heç bir əsasının olmadığını göstərib.

Ermənistan tərəfinin bu açıqlaması sözügedən ölkənin niyyətinin humanitar prosesə töhfə vermək olmadığını göstərir və bu addım etimad quruculuğu tədbiri kimi qiymətləndirilə bilməz. Azərbaycan tərəfi bu günə qədər ölkəmizə tam şəkildə təqdim edilməyən minalanmış bütün ərazilərin dəqiq xəritələrinin Ermənistan tərəfindən təqdim olunmasını gözləyir.

Bununla yanaşı, son 30 il ərzində itkin düşmüş 4000-ə yaxın azərbaycanlıların aqibəti, habelə azərbaycanlıların dəfn olunduqları kütləvi məzarlıqların yerləri barədə Ermənistan tərəfindən məlumatların təqdim edilməsi məqsədilə təxirəsalınmaz tədbirlər görülməlidir.

# Xəbərlər: hadisələr, faktlar

## Britaniya Müdafiə Nazirliyi: 40 minə yaxın ukraynalı hərbçiyə təlim keçirilib



Böyük Britaniya və onun müttəfiqləri 38 mindən çox ukraynalı hərbçiyə təlim keçib.

Bu barədə Britaniya Müdafiə Nazirliyi X sosial şəbəkədəki hesabında məlumat yayıb.

Bildirilib ki, 34 mindən çox hərbçi piyada hazırlığı proqramını başa vurub, daha 4 min nəfər isə həkim, istehkamçı və dəniz piyadalarının hazırlanması üzrə xüsusi kurslardan keçib.

Bundan əvvəl Böyük Britaniyanın Müdafiə Nazirliyi Kiyevə silah tədarükü üçün Beynəlxalq Dəstək Fondundan maliyyələşmə üçün müraciətlərin qəbulunun üçüncü raundunun tezliklə başladığını elan edib.

## Pentaqon: NATO Rusiya ilə münaqişəyə can atmır



Şimali Atlantika Alyansı (NATO) Rusiyaya özünümüdafiəyə hazır olduğunu sübut etməyə çalışır, amma onunla silahlı münaqişəyə can atmır.

Bu bəyanatla ABŞ-ın müdafiə nazirinin beynəlxalq təhlükəsizlik məsələləri üzrə köməkçisi Selest Uollander çıxış edib.

NATO-nun Rusiya ilə birbaşa qarşıdurmaya getmədən Qara dənizdə təhlükəsizliyi necə yaxşılaşdırmağı planlaşdırdığı ilə bağlı suala cavablandıran S.Uollander deyib ki, alyans buna Madrid və Vilnüs sammitlərindən sonra liderlərin qərar və göstərişlərinə əməl etməklə nail olmaq niyyətindədir. NATO ölkələri Vilnüsdə alyansın şərq cinahında 300 min əsgər yerləşdirmək planını təsdiqləyib.

"Söhbət müdafiə imkanlarından gedir. Onlar NATO-nun özünü müdafiə edə biləcəyini nümayiş etdirmək üçün nəzərdə tutulub. Məqsəd çəkindirməkdir, Rusiya ilə müharibəyə təhrik etmək deyil", - deyə Pentaqon rəhbərinin köməkçisi bildirib.

## Husilər Ədən körfəzində ABŞ-a məxsus gəmilərə qarşı hərbi əməliyyat elan ediblər



Yəmənin "Ənsar Allah" hərəkatından olan husi üsyançıları Ədən körfəzi və Bab əl-Məndəb boğazında ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus gəmilərə qarşı hərbi əməliyyat elan ediblər.

Bu barədə hərəkatın hərbi nümayəndəsi Yəhya Səriyanın teleqram kanalında yayımladığı bəyanatda deyilir.

"Ədən körfəzi və Bab əl-Məndəb boğazında ABŞ-ın bir neçə esminesi və döyüş gəmisi ilə toqquşma baş verib. Bu gəmilər ABŞ-ın iki ticarət gəmisini mühafizə edirdi. Əməliyyat nəticəsində ABŞ-ın hərbi və iki ticarət gəmisi birbaşa vurulub və geri çəkilməyə məcbur edilib", - deyə o vurğulayıb.

Məlumata görə, iki saatdan çox davam edən toqquşmada husilər bir neçə ballistik raketdən istifadə edib.

## ABŞ Rusiyadan asılılığını azaltmaq üçün zənginləşdirilmiş uranın istehsalını artıracaq



ABŞ Energetika Nazirliyi Rusiyadan tədarük asılılığını azaltmaq üçün aşağı zənginləşdirilmiş uranın istehsalını artırmağı planlaşdırır.

Bu barədə nazirliyin nümayəndəsi Yaponiyanın "Yomiuri" qəzetinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, Birləşmiş Ştatlar Böyük Britaniya, Kanada, Fransa və Yaponiya ilə six əməkdaşlıq edərək Rusiyadan idxala imtina etməyə imkan verəcək bu yanacaq növü üçün yeni təchizat zəncirləri şəbəkəsi yaratmağa hazırlaşır. Bildirib ki, bu məqsədlər üçün Amerikanın özəl podratçılarının potensialının artırılmasını nəzərdə tutan müvafiq layihəyə təxminən 2,2 milyard dollar ayrılması planlaşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

## “Azərbaycanla bundan sonra da birlikdə və bərabər olacağıq”

1990-cı il yanvarın 20-də Azərbaycanda törədilən, "Qara Yanvar" kimi tanınan qətliamda şəhid olanların xatirəsini yad edir, Azərbaycanla bundan sonra da birlikdə və bərabər olacağımızı vurğulayırıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Milli Müdafiə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə müşaviri, kontr-admiral Zeki Aktürk deyib.

Aktürk bildirib ki, Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən son bir həftədə İraq və Suriyanın şimalı da daxil olmaqla, ölkədaxili və sərhədyanı əməliyyatlarla 82 terrorçu zərərsizləşdirilib. PKK-KCK-PYD-YPG, İŞİD və FETÖ başda olmaqla, bütün terror təşkilatlarına qarşı əməliyyatlarla ötən il yanvarın 1-dən indiyədək zərərsizləşdirilən terrorçuların sayı 2478-ə çatıb.

Terrorçular tərəfindən Suriyadakı əməliyyat bölgələrində yaradılan təhlükəsizlik və sülh mühitini pozmağa yönələn təxribat və hücum cəhdləri davam edir. Son həftədə 17 təxribat və hücum cəhdi olub. Görülən cavab tədbirləri nəticəsində 56 terrorçu zərərsizləşdirilib.

Bildirilib ki, son bir həftədə qeyri-qanuni yollarla Türkiyə sərhədlərini keçməyə cəhd edən, 3-ü FETÖ, 1-i PKK-YPG, 4-ü isə İŞİD üzvü olmaqla, ümumilikdə 191 nəfər saxlanılıb, 6430 nəfərin sərhədi keçməsinin qarşısı alınıb.

Beləliklə, 2024-cü ilin əvvəlindən ölkə sərhədlərini qanunsuz yollarla keçməyə cəhd göstərənlərin sayı 498-ə, sərhədi keçməsinin qarşısının alınanların sayı isə 15 min 153 nəfərə çatıb.

## “Həm də ata istəyinin əsgəriyəm”

Rəşad Rəhimovun atası Ağdamın Zəngişarlı kəndində yaşayıb. Birinci Qarabağ müharibəsində döyüşənlərin, Allahverdi Bağırovun komandir olduğu taborda Ağdamı qoruyanların sırasında o da olub. Neçə dəfə ermənilərin hücumunun qarşısını almışdılar, neçə dəfə kəndlərimizə yönəldilən həmlələri qabaqlamışdılar. Sonralar həmin döyüşləri xatırlayanda döyüşlərə görə deyil, 1993-cü il iyulun 23-nə görə təəssüflənərdi, bu təəssüfdə şəhid olan döyüşçü yoldaşlarına görə qəhər də olardı. İşğaldan sonra o da digər döyüşçü yoldaşları kimi Ağdamsızlığın ağrılarını yaşaya-yaşaya işğaldan qurtuluşun döyüşlərinin başlayacağı günü arzulayardı. Rəşad bu arzulamaları körpəliyində də eşidərdi, yeniyetməliyində də. "Döyüş əmri siz cavanlaşana kimi verilsə, döyüşənlərin sırasında mən də olacam, oğul. Siz xidmətdə olanda verilsə, yan-yanaşı döyüşərik. Həm də mən sənə, sən də mənə layiq, hər ikimiz Vətənə layiq döyüşçü olarıq..." , - Rəşad atasının bu niyyətinin çağırışı ilə böyümüşdü.

2012-ci ildə hərbi xidmətə çağırıldı...

"Mən Vətən əsgəri kimi, komandirlərimizin bütün əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirəcəm. Mən həm də ata istəyinin əsgəriyəm. Torpaqlarımızı işğaldan qurtarmaq üçün Ali Baş Komandanın döyüş əmrini qələbə ilə başa çatdıracağıq. Ağdam da işğaldan azad ediləcək...", - Rəşad asudə vaxtlarda söhbətləşəndə əsgər yoldaşlarına belə deyirdi, hərbi xidmətin ayları belə il olurdu...



Onun da hərbi xidmət müddəti başa çatdı, onu da tərxis etdilər. Hərbi xidmətin sonuncu gecəsinin sonuncu niyyəti "Döyüşlər başlayanda görüşərik!" kəlmələriylə tamamlanmışdı...

Yenidən ordu sıralarına qayıtmaqda qərarlı idi. İstəyini atası da bəyənmişdi: "Vətənin o başı, bu başı olmur, oğul. Ağdam uğrunda döyüşməzsən, o biri ərazilərimizin işğaldan azad edilməsi uğrunda döyüşərsən. Hara göndərərlərsə, orada xidmət edərsən. Döyüşlər başlayanda yanında olacam...". Rəşad atasının xeyir-duası ilə 2019-cu ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başladı...

Manqa komandiri idi. Əsgərlərin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün manqa bütün təlimlərdə məsuliyyətlə iştirak edirdi. Komandirlərinin bir tövsiyəsini onlar da xidmətlərinə amal hesab edirdilər: "Tapşırıqları yerinə yetirmək hərbçi borcunuzdu, onları daha böyük ruhla, daha böyük sevgilərlə yerinə yetirmək vətəndaşlıq borcunuzdu. Rəşad da, manqanın şəxsi heyəti də belə xidmət edirdilər...

İkinci Qarabağ müharibəsi başlayanda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rəşad Rəhimovun xidmət ediyi hərbi hissə də döyüşlərə cəlb olundu.

Ağdamın Baş Qərvənd kəndinin üst tərəfində düşmənin postu vardı. Düşmən oradan döyüşçülərimizin irəliləməsinə imkan vermirdi. Komandir, Rəşad Rəhimov da daxil olmaqla, kiçik bir qrupa erməniləri həmin döyüş mövqeyindən sıxışdırıb çıxartmağı tapşırdı...

Qrup düşməni duyuq salmadan irəlilədi, münasib mövqe tutub atışmağa başladı. Düşmən belə həmlə gözləmədiyindən mövqeni tərk etməyə məcbur oldu. Əmr yerinə yetirildi...

Ağdamın Əliağalı, Məlikli kəndləri uğrunda da mərdliklə, cəsarətlə döyüşdülər. Komandanlıq manqaya da, çavuş Rəşad Rəhimova da təşəkkür elan etdi...

Nümunəvi xidmət təkcə Nizamnamələrin tələblərini yerinə yetirməklə bitmir, hərbi qulluqçunun təşəbbüskarlığı da vacibdir, hərbi qulluqçularla ünsiyyət mədəniyyəti də, əsgəri dostluğa sədaqəti də, mənəvi saflığı da, ... Bunlar Azərbaycan əsgərinin malik olduğu mənəvi keyfiyyətlərdəndir. Azərbaycan Ordusu belə əsgərlərin ordusudu. Hərbi hissədə nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçulardan olan çavuş Rəşad Rəhimov da belə əsgərdi...

"Döyüş hazırlığını yüksək səviyyədə saxlamaq hərbi xidmətimizin başlıca şərtlərindəndir. Mən də elə xidmət edirəm", - çavuş Rəşad Rəhimov belə dedi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan badmintonçusu beynəlxalq turnirdə ən güclü “dördlüy”ə düşüb



Azərbaycan badmintonçusu Keişa Fatimə Zəhra İsveçin Uppsala şəhərində keçirilən "VICTOR Swedish Open" turnirində qadınların şəxsi yarışında ən güclü "dördlük"də yer alıb.

Mübarizəyə əsas mərhələdən başlayan idmançı ilk görüşündə isveçli Sesilia Vanqı 2:0 (21-14,21-19) hesabı ilə məğlub edib.

18 finalda şotlandiyalı Reyçel Suqdeni (21-9,21-17) mübarizədən kənarlaşdıran Zəhra 14 finalda Danimarka badmintonçusu Frederikke Lundla qarşılaşıb. Üç set davam edən görüş K.Fatimənin (18-21,21-13,21-11) qələbəsi ilə başa çatıb. O, finala yüksəlmək uğrunda keçirilən görüşdə fransalı Leonis Hyueyə (13-21,14-21) uduzub.

Olimpiya Təsnifat dövründə keçirilən yarışdan Keişa Fatimə Zəhranın qazancı 1750 reytinq xalı olub.

## Güləş üzrə ilin ilk yerli yarışı keçiriləcək



20 yaşadək sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək.

Çempionat yanvarın 29-dan fevralın 1-dək təşkil olunacaq. Gənclər və İdman Nazirliyi ilə birgə keçiriləcək yarışı beynəlxalq və milli dərəcəli hakimlər idarə edəcək. Bakı İdman Sarayında baş tutacaq çempionatın ilk 2 günündə sərbəst, növbəti 2 gündə isə yunan-Roma güləşi üzrə qaliblər müəyyənləşəcək.

İyirmi yaşadək gənclərdən ibarət milli komandalara seçim xarakteri daşıyan yarışın görüşləri hər gün saat 10:00-da start götürəcək.

## Azərbaycan cüdoçuları Belçika Açıq Cüdo turnirində iştirak edəcəklər




Azərbaycan cüdoçuları Belçikanın Vise şəhərində keçiriləcək beynəlxalq Belçika Açıq Cüdo turnirində iştirak edəcəklər.

Milli komanda yarışda kişilər arasında 7 çəki dərəsində 12 idmançı ilə təmsil olunacaq.

Onlar Rövşən Əliyev (60 kiloqram), Aydın Rzayev (66 kiloqram), Nəriman Mirzəyev (73 kiloqram), Məmmədrza Hacızadə, Kərim Allahverdiyev, İslam Kərimov (hamısı 81 kiloqram), Əjdər Bağırov, Musa Hüseynli (hər ikisi 90 kiloqram), Hüseyn Dadaşov, Ruslan Nəsirli (hər ikisi 100 kiloqram), Camal Feyziyev və Kənan Nəsibovdur (hər ikisi +100 kiloqram).

Cüdoçulara böyüklərdən ibarət yığmanın məşqçisi Rüstəm Alimli rəhbərlik edəcək.

Qeyd edək ki, beynəlxalq Belçika Açıq Cüdo turniri yanvarın 27-28-də keçiriləcək.

## Azərbaycan millisi reytinq cədvəlində ikinci pilləyə yüksəlib




Dünya Minifutbol Federasiyası (WMF) milli komandaların yeni reytinq cədvəlini açıqlayıb.

Son Avropa çempionatının qalibi olan Azərbaycan millisi üç pillə irəliləyərək ikinci sıraya yüksəlib. Yığmanın hesabında 3000 xal var.

Reytinq cədvəlinə 4125 xalla son dünya çempionu Rumıniya başçılıq edir. Macarıstan kollektivi isə 2600 xalla ilk "üçlüy"ü tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Asudə vaxt səmərəli keçir



Şəxsi heyətin asudə vaxtının nümunəvi və səmərəli təşkilinə həmişə yüksək diqqət və önəm verilir. Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, hərbi hissə və birləşmələrdə müntəzəm olaraq şəxsi heyətin vətənpərvərlik ruhunun yüksəldilməsinə xüsusi diqqət göstərilir. Qədim tariximizin, incəsənətimizin, mənəvi dəyərlərimizin və hərb tariximizin öyrənilməsi üçün maarifləndirici söhbətlər aparılır, muzeylərə, qədim tarixi yerlərə ekskursiyalar təşkil olunur, elm və incəsənət xadimləri ilə yadda qalan görüşlər keçirilir.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi də bu istiqamətdə məqsədyönlü fəaliyyətini uğurla davam etdirir. Mərkəzin əməkdaşları tez-tez işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə mədəni-kütləvi tədbirlərin keçirilməsində yaxından iştirak edirlər. Növbəti dəfə mərkəzin əməkdaşları "N" hərbi hissəsində oldular.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad olundu. 44 günlük Vətən müharibəsində və 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusu tərəfindən həyata keçirilən əməliyyat tədbirlərində igid Vətən oğullarının göstərdikləri rəşadətdən, misilsiz şücaətlərdən, yüksək vətənpərvərlik nümunələrindən danışıldı. Bildirildi ki, qazandığımız tarixi qələbə ilə Azərbaycan Ordusu dünya miqyasında yeni bir uğura imza atdı. Bir çox beynəlxalq təşkilatlar ordumuzun peşəkarlığını, döyüş qabiliyyətini yüksək qiymətləndirir.

Sonra "Əsgərə məktub" layihəsi çərçivəsində ictimaiyyət tərəfindən əsgərlərə ünvanlanan məktublar onlara təqdim olundu. Əsgərlər göstərilən diqqətə görə minnətdarlıqlarını bildirdilər. Sonra isə doğmalarına, yaxınlarına məktublar ünvanladılar. "Vətən uğrunda" ansamblının hazırladığı konsert proqramı şəxsi heyət tərəfindən rəğbətlə qarşılandı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əliyev Nurlan Ağafər oğluna məxsus AD № 0022663 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 20
Nüsxə 4646